# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 247** **Bakı şəhəri, 24 iyun 2022-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ünvan Reyestri İnformasiya Sistemi ilə inteqrasiya olunacaq digər dövlət orqanlarının informasiya sistemlərinin dairəsi"nin təsdiq edilməsi barədə" 2012-ci il 24 dekabr tarixli 318 nömrəli, "Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2019-cu il 6 fevral tarixli 38 nömrəli və "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın təsdiq edilməsi və "Hökumət buludu" ilə bağlı bəzi tədbirlər haqqında" 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

"Elektron prokurorluq" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 3 mart tarixli 1621 nömrəli Fərmanının 7-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 dekabr tarixli 318 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1382; 2014, № 1, maddə 71, № 2, maddə 201, № 6, maddələr 734, 747; 2016, № 3, maddə 597, № 5, maddə 955, № 9, maddə 1594, № 12, maddə 2241; 2019, № 1, maddə 163, № 3, maddə 565; 2020, № 10, maddə 1304; 2021, № 2, maddə 194, № 9, maddə 1065; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 4 aprel tarixli 136 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Ünvan Reyestri İnformasiya Sistemi ilə inteqrasiya olunacaq digər dövlət orqanlarının informasiya sistemlərinin dairəsi"nə aşağıdakı məzmunda 38-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 38. | "Elektron prokurorluq" informasiya sistemi | Azərbaycan Respublikasının Baş Prokurorluğu |

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 336, № 3, maddə 560) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı"na aşağıdakı məzmunda 5-ci hissə əlavə edilsin:

| | |
|---|---|
| 5. | **Azərbaycan Respublikasının Baş Prokurorluğu** |
| 5.1. | "Elektron prokurorluq" informasiya sistemi |

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1316; 2021, № 2, maddə 203, № 4, maddələr 416, 418, № 9, maddə 1064, № 12, maddə 1510; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 4 aprel tarixli 131 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"na aşağıdakı məzmunda 91-ci sətir əlavə edilsin:

| | | |
|---|---|---|
| 91. | Azərbaycan Respublikasının Baş Prokurorluğu | |

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***